**UOT: 159.9**
https://doi.org/10.59849/2409-4838.2025.1.86

# EMOSİONAL İNTELLEKTİN İNKİŞAF TARİXİ: XIX ƏSR NƏZƏRİYYƏLƏRİNDƏN ANLAYIŞIN MÜASİR MAHİYYƏTİNƏ QƏDƏR

**Nigar Yaşar qızı İsmayılova**
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
adakinq458@gmail.com

*Məqalədə 19-cu əsrin fəlsəfi və elmi yanaşmalarından müasir koqnitiv və neyrobioloji modellərə qədər emosional intellekt anlayışının tarixi təkamülü araşdırılır. Müəllif əsas nəzəri əsərləri, o cümlədən C.Darvin, U.Ceyms və U.Kannon əsərlərini təhlil edir və bu əsərlər emosiyalar və idrak proseslər arasındakı əlaqə haqqında fikirlərin formalaşmasına təsir etdiyini göstərir. Koqnitiv psixologiya və nevrologiya sahəsində müasir tədqiqatlara xüsusi diqqət yetirilir ki, bu da emosional intellektin mexanizmlərini daha dərindən dərk etməyə imkan verir. Bu konsepsiyanın inkişafına mühüm töhfələr vermiş psixometrik, koqnitiv və kontekstual yanaşmalar kimi intellektin əsas nəzəriyyələri təhlil edilir. Adaptasiya prosesinə təsir edən adaptiv mexanizmlər kimi emosiyaların və idrak proseslərinin funksional qarşılıqlı əlaqəsi də araşdırılır. Emosional intellekt şəxsiyyətlərarası münasibətlərin uğurunu və cəmiyyətdə effektiv uyğunlaşmanı şərtləndirən ən mühüm amil hesab olunur.*

***Açar sözlər:*** *emosiya, intellekt, inkişaf tarixi, sosial intelekt, emosional intellekt*

## GİRİŞ

Müstəqil bir tədqiqat sahəsi kimi emosional intellekt konsepsiyası 1990-cı illərdə sürətlə inkişaf etməyə başladı, lakin onun aktuallığı və əhəmiyyəti insan həyatının getdikcə daha çox sahələrini əhatə etməklə artmağa davam edir. Sürətlə dəyişən, şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin əhəmiyyətinin, dəyişikliklərə uyğunlaşmaq və problemləri effektiv həll etmək bacarığının uğur üçün həlledici amilə çevrildiyi bir şəraitdə EI konsepsiyası təkcə nəzəri deyil, həm də praktiki əhəmiyyət kəsb edir.

Qloballaşma və mədəni fərqlilikləri, eləcə də getdikcə mürəkkəbləşən şəxsiyyətlərarası və mədəniyyətlərarası qarşılıqlı əlaqəni nəzərə alaraq, şəxsiyyətlərarası münasibətlərdə emosional intellektin rolu daha da əhəmiyyətli olur. Stress və qeyri-müəyyənlik şəraitində digər insanların emosiyaları anlamaq, qavrayışın mədəni xüsusiyyətlərini nəzərə almaq və onlara effektiv cavab vermək vacibdir. Bu biliklər təkcə uğurlu peşəkar münasibətlərin qurulmasına kömək etmir, həm də sosial inteqrasiyanın yaxşılaşdırılmasına və cəmiyyətdə sabit, sağlam münasibətlərin saxlanmasına kömək edir.

Bununla belə, onun mənasını və təsirini dərindən dərk etmək üçün həm ümumi intellektə, həm emosiyalara aid əsas nəzəri yanaşmaları nəzərdən keçirmək vacibdir. Emosional intellekt konsepsiyasını aydınlaşdırmaq üçün onun formalaşmasında fundamental rol oynamış üç əsas tədqiqat sahəsini müəyyən edə bilərik:

1) *emosional proseslərin tədqiqi, 2) intellekt nəzəriyyələrində qeyri-koqnitiv elementlərin öyrənilməsi; 3) emosiyaların və koqnitiv proselərin qarşılıqlı təsiri ilə bağlı tədqiqatların inkişafı*

## ƏSAS HİSSƏ

### 1) Emosional proseslərin tədqiqi

İnsan emosiyalarının tədqiqi tarix boyu müxtəlif filosoflar tərəfindən sistemli şəkildə öyrənilmişdir. İdeyaların bir çox hissəsi emosiyaların təfəkkür prosesinə təsiri və emosional vəziyyətin idarə edilməsinə yönəlmişdir. Əlbəttə bu aspektdə emosiyalar insanın rasional düşünmə qabiliyyətinə mane olan dağıdıcı qüvvə kimi qəbul edilirdi [74]. Emosiyaların öyrənilməsinə yenidən maraq isə Ç.Darvin, U. Ceyms, V Vundt və U. Kannon kimi məşhur alimlərin nəzəriyyələri ilə başlıyır və bu, emosiya sahəsində müasir tədqiqatların sonrakı inkişafında fundamental rol oynuyur. Psixologiya

sahəsində emosiyaları izah edən müxtəlif nəzəri yanaşmalar mövcud olsada, bu nəzəriyyələrin hər birini qruplaşdırmaq və təsnif etmək üçün hər hansı bir meyara əsaslanmaq çətindir. Buna səbəb isə hər bir konsepsiyanın əsasında dayanan bir neçə fundamental nəzəriyyələrin olmasıdır. Tədqiqatın məqsədi emosional intellekt anlayışını tarixi kontekstdə qiymətləndirmək olduğu üçün emosiyalar dair əsas yanaşmalar təhlil edilmişdir.

Bildiyimiz kimi Ç. Darvinin emosiyaların ifadəsi ilə bağlı fikirləri sonrakı nəzəriyyələrə mühüm təsir göstərmişdir. Bunlar: 1) genetik olaraq ötürülən emosional ifadələrin adaptiv funksiyasını vurğulayan "faydalı vərdişlər" prinsipi; 2) emosiyaların ifadəsində üz ifadələrinin və davranışlarının rolunu vurğulayan "antitez" prinsipi; 3) "sinir sisteminin təsiri" prinsipi müəyyən emosiyaların sinir sisteminin fəaliyyətində baş verən dəyişikliklərdən qaynaqlandığını müəyyən edir [2, s. 28]. Emosional proseslərin tərifində əsaslı dəyişikləri təklif edən U. Ceyms qeyd edir, "bədən oyanması bilavasitə ona səbəb olan faktın qavranılmasından irəli gəlir və bu oyanmanı baş verdiyi anda dərk etməyimiz isə emosiya adlanır" [3, s. 151]. Yəni, emosiya şüurlu xarakter daşıyır və onun yaranmasına səbəb olan obyektin qavranılması nəticəsində periferik təzahürlərin şüura təsiri ilə izah olunur. U. Kannon isə periferik nəzəriyyənin təkzib etməyə yönəlmiş bir sıra tədqiqatlar aparmışdır. Tədqiqatların nəticəsi kimi müəllif emosiyalar və bədən reaksiyaları arasında əlaqənin olduğunu təsdiqləyir və periferik nəzəriyyənin əksinə olaraq qeyd edir, "(1) Emosional ifadə subkortikal mərkəzlərin fəaliyyətinin nəticəsidir və (2) Talamik proseslər affektiv təcrübə mənbəyidir.... Təbii olaraq özünü göstərən nəzəriyyə ondan ibarətdir ki, talamus prosesləri aktivləşdikdə sadə duyğulara xüsusi emosiya keyfiyyəti əlavə olunur" [10, s. 577-582]. Yəni, emosional təcrübənin yaranmağı emosional stimulun mərkəzi sinir sistemi (talamus) səviyyəsində işlənməsinə əsaslanır və bu məlumat öz növbəsində ümumiləşdirilmiş şəkildə aktivləşdirilən vegetativ sinir sisteminə göndərilir.

Qeyd etmək lazımdır ki, bu nəzəriyyələr uzun müddət üstünlük təşkil etmiş və sonrakı istiqamətlərin formalaşmasında və inkişafında təsirli olmuşdur. Nəzəriyyələrin inkişafını üç istiqamət üzrə izləmək olar. *Birinci istiqamət* Ç. Darvinin emosional ifadələrlə bağlı ideyalarının müasir kontekstdə davam etməsidir. Müasir tədqiqatların emosional ifadələr, xüsusən də emosiyaların adaptivlik prinsipi və fundamental emosiyaların müəyyən edilməsi istiqamətində formalaşdığını görmək olar. *İkinci istiqamət* U.Ceymsin ideyalarını inkişaf etdirən emosiyaların koqnitiv nəzəriyyələridir. U. Ceymsin nəzəriyyəsi artıq koqnitiv prosesləri nəzərə alsa da, koqnitiv proseslərin mürəkkəbliyini əhatə etmir. Emosional proseslər koqnitiv nəzəriyyələrinin əsas elementi olan koqnitiv qiymətləndirmə vasitəsilə izah olunur. *Üçüncü* istiqamət isə emosiyalarla bağlı neyrobioloji tədqiqatların inkişafıdır.

Birinci istiqamətin inkişafı biheviorizmin artan təsiri ilə başladı. Bildiyimiz kimi biheviorizm daxili psixi proseslərin rolununun qəbul etmirdi və insan təcrübəsinin formalaşmasında əsas element kimi müşahidə olunan davranışı vurğulayan prinsiplərə əsaslanırdı. Bu isə öz növbəsində, emosiyaların qeyri-verbal davranış (əsasən üz davranışları) kimi öyrənilməsinə səbəb olmuşdur. Lakin S.Tomkinsin biheviorizm yanaşmasından fərqli olaraq qeyri-verbal davranışları (affektiv reaksiyalar) daha geniş öyrənməyə başlıyır. O, insan davranışında əsas təsirli olan üz ifadələrini vurğuluyur və insana dünya haqqında və dünyaya insan haqqında məlumat verən ikitərəfli rabitə sistemi kimi müəyyənləşdirir. O, həmçinin vurğulayır ki, hər bir emosiya əvvəlcədən proqramlaşdırılmış reaksiyalardır (məsələn, üz əzələlərinin hərəkətindəki dəyişikliklər və səs təzahürləri, səsin dəyişməsi) [71, 72]. Bu fikirlər emosiyaların adaptiv funksiyaları, o cümlədən qeyri-verbal davranışın mədəniyyətlərarası tədqiqi [21, 22, 24, 25, 28, 40, 41], emosional ifadələrin öyrənilməsi [27, 42, 43] və emosiyaların diferensial təhlili kimi tədqiqatların yaranmasına səbəb olmuşdur [23, 26, 39, 44].

Aparılan mədəniyyətlərarası tədqiqatlar nəticəsi üzdəki emosional ifadələrin universallığını və əsas emosional vəziyyətlə birbaşa əlaqəli olmasını təsdiq edir. Özündə həm bioloji həm sosioloji aspektləri birləşdirən "neyromədəni" nəzəriyyə (P. Ekman) mədəni və bioloji təsirlərin üz ifadələrinin məna və istifadəsinə necə təsir etdiyini izah edir (universalıq və mədəni fərqlər). Müəllif emosional ifadələrin universallığını üz əzələlərinin xarakterik hərəkətləri ilə spesifik emosiyalar arasındakı əla-

qənin əsasında təyin etmişdir, digər tərəfdən öyrənmə nəticəsində müəyyən emosiyaların yaranmağına səbəb olan hadisələrin əksəriyyəti mədəniyyətlərarası fərqləndiyini və buda öz növbəsində, üz ifadəsinə nəzarət qaydalarının mədəniyyətdən asılı olaraq dəyişdiyini göstərir [25, s. 212]. Eyni nəticələri K. Izard mədəni-linqvistik qruplarda apardığı müqayisəli təhlil əsasında əldə edilmişdir [40, 43]. Mədəniyyətlərarası tədqiqatların inkişafı emosional ifadələrin qiymətləndirmək üçün yeni metodların (FACS (Facial Action Coding System) üz hərəkətlərin kodlaşdırma sistemi [27] və MAX (Maximally Discriminative Affect Coding System) affektlərin maksimum diskriminant kodlaşdırma sistemi yaranmasına səbəb olmuşdur [42]. Emosional ifadələrin qiymətləndirilməsi sistemi isə unikal (ekspressiv, fiizioloji və koqnitiv) və ümumi xüsusiyyətlərə (sürətli və qeyri-iradi yaranması, qısa müddətli olmağı, avtomatik qiymətləndirilməsi və reaksiyaların ardıcıllığı) malik olan əsas emosiyaların müəyyənləşdirilməsinə səbəb olmuşdur [26]. K. Izard üçün isə baza emosiyalar neyrobioloji substratlar, təkamül xarakterli ekspressiv komponent və idrak və hərəkəti tənzimləmək, motivasiya etmək üçün xüsusi universal qabiliyyətlərin olması ilə xarakterizə olunur [39]. Bu ideyanın müəllifləri əsas (baza) emosiyaların üz ifadələrin əsasında müəyyənləşdiyini və istənilən mədəniyyətdə universal, anadangəlmə və tanınan şəkildə olduğunu qeyd edirlər. Nəticədə qeyd ounan tədqiqatlar emosional proseslərin fizioloji mexanizmləri müəyyən edərək, emosiyaların təbiəti haqqında nəzəri və empirik bilikləri əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olmuşdur. Digər tərəfdən, müəlliflər emosiyaların fizioloji aspektini öyrənsədə, emosional prosesdə qiymətləndirmə funksiyasının əhəmiyyətini də vurğulayırlar. Bu kontekstdə ən mühüm amil sosial öyrənmədir ki, müxtəlif sosial kontekstlərdə emosional ifadə və davranışı tənzimləyən daxili dəyərlər və qaydalar sisteminin yaradılmasına kömək edən mədəni və sosial normalar çərçivəsində baş verir.

İkinci istiqamətin inkişafı kimi koqnitiv yanaşmanı qeyd etmək olar. Periferik nəzəriyyəni (U.Ceyms) davamı kimi baxmaq olar, yəni, periferik aktivliyin emosional davranış üçün zəruri olduğunu, lakin kifayət qədər izah etmədiyini görmək olar. Buna səbəb isə istənilən fizioloji oyanma zamanı insan beyni bu oyanmanın səbəbini axtarır, buda öz növbəsində koqnitiv proseslərlə izah olunur. Koqnitiv nəzəriyyə emosiyaların yaranmasında əsas mexanizminin koqnitiv proseslər olduğunu göstərir. Bu ideyanın yaranmağında S.Şaxter və C.Singerin apardığı tədqiqatların rolunu vurğulamaq vacibdir, çünki emosional prosesdə yalnız fizioloji dəyişikliklər deyil, həmçinin emosiyaları müəyyən etməyə kömək edən koqnitiv komponentlərin iştirak etdiyini qeyd edirlər [67]. Bu sahənin əsas tədqiqatçılarından hesab olunan M.B. Arnold mahiyyətcə emosiyalar haqqında qədim fikirlərin sistemləşdirərək, onları təkamül nəzəriyyəsi ilə əlaqələndirib “qiymətləndirmə” adlı yeni nəzəri yanaşma yaratmışdır. Qiymətləndirmə nəzəriyyəsinin əsas ideyası emosiyaların orqanizmin rifahı üçün əhəmiyyətli olan ətraf mühitin xüsusiyyətlərinin qiymətləndirilməsini əks etdirən adaptiv reaksiya olduğundan ibarətdir [6]. Buda öz növbəsində emosional reaksiyaların intensivliyinin və keyfiyyətinin koqnitiv qiymətləndirmədən asılı olduğunu göstərir. Bu ideyaları inkişaf etdirən tədqiqatçıları iki qrupa bölmək olar: iki mərhələli qiymətləndirmə prosesini müəyyən edənlər [4, 49, 53, 60] və qiymətləndirmə prosesinin xüsusiyyətlərindən asılı olaraq emosiyaları təsnif edənlər [61, 68, 73]. Digər tərəfdən koqnitiv yanaşma ilə bağlı tənqidi fikirlər göstərir ki, emosiyalar koqnitiv proseslərdən asılı olmayaraq yarana bilər. Bu fikri dəstəkləyən R. Zajonc görə, bəzi affektiv reaksiyalar, xüsusilə də qorxu kimi emosiyalar geniş qavrayış və koqnitiv kodlaşdırma olmadan baş verə bilər [86].

J. LeDoux isə bu fikirləri neyrobioloji tədqiqatlarla əsaslandırır. Müəllif hesab edir ki, emosiya və koqnitiv proseslərin ayrı ayrılıqda, lakin qarşılıqlı əlaqədə olan beyin sistemləri tərəfindən idarə olunur [50]. Nəticədə yaranan tənqidi fikirlər, emosiya və koqnitiv proseslərin qarşılıqlı əlaqəsini təsdiqləyən neyrobioloji tədqiqatları formalaşdırır. Aparılan tədqiqatlarda, qarşılıqlı əlaqəni təmin edən və emosional sistemin əsas strukturunu təşikl edən badamvari cismin (*amigdala)* rolu vurğulanır.

Təqdim olunan yanaşmalara görə, emosiyalar insanın daxili vəziyyətini və onun xarici təsirlərə reaksiyasını tənzimləyən ən mühüm mexanizm rolunu oynayır. Emosiyalar təkcə emosional və-

ziyyətin göstəriciləri deyil, həmçinin adaptasiya prosesinə kömək edən xarici stimulların qiymətləndirilməsinə və davranışın müvafiq tənzimlənməsinə yönəlmiş fizioloji və psixoloji proseslərin aktivləşdirilmə funksiyasını yerinə yetirir. Digər tərəfdən, emosiyalar ayrı-ayrılıqda mövcud deyil, qavrama və dərketmənin koqnitiv mexanizmləri ilə sıx bağlıdır ki, bu isə öz növbəsində davranışa təsir etməklə məhdudlaşmır, həmçinin onu daxili qiymətləndirmələrə və xarici şəraitə uyğun olaraq dəyişdirməyə imkan verir, yəni konkret sosial və mədəni kontekstlərə uyğun gələn davranışın adaptiv modelini formalaşdırır.

2) intellekt nəzəriyyələrində qeyri-koqnitiv elementlərin öyrənilməsi

Emosiya nəzəriyyələri emosional intellekt anlayışını geniş mənada şərh etsədə, intellekt nəzəriyyələri isə onun xüsusi konstruksiya kimi formalaşmasında və inkişafında əsas rol oynayır. İntellekt uzun müddət psixoloji tədqiqat mövzu olmuşdur və bu sahədəki tədqiqatların sayı son əsrdə davamlı olaraq artmışdır. Buna səbəb isə intellektin inkişaf problemi və ona təsir edən amillərin öyrənilməsinə böyük marağın olmasıdır. Bu yanaşmalar intellektin öyrənilməsinə və tətbiqinə təsir etməkdə davam edir. Bu məqsədlə bu sahədə mövcud olan müxtəlif yanaşmaları təhlil etmək vacibdir.

*Psikometrik yanaşma* intellektin müxtəlif amilləri arasında statistik əlaqələrin müəyyən edilməsinə əsaslanaraq əqli qabiliyyətlərin strukturunun və təşkilinin təhlilinə yönəlmişdir. *İlkin nəzəriyyələr* (Ç. Spirmenin ikifaktorlu intellekt modeli [75], L.L.Terstounun ilkin əqli qabiliyyətlər modeli (Thurstone, L.L. (81), C.P.Gilfordun struktur modeli [33, 34] *ümumi intellektin rolunu vurğulasa da, sonrakı tədqiqatlar intellektin iyerarxik modellinin (*F.E. Vernonun intellektin iyerarxik quruluşu [83], R.B.Kettel və C.L.Horn "hərəkətli" (fluid) və "kristalaşmış" (crystallized) intellekt modeli [37], C.K.Kerrollun üç səviyyəli intellekt modeli daxildr [12] *daha təsirli olduğunu göstərir*. Psixometrik nəzəriyyələr testlərin nəticəsində fərdi fərqləri müəyyən etsədə, bu fərqlərin səbəblərini izah etməkdə çətinlik çəkirdi və bu isə yeni mərhələnin, yəni intellektin əsasını təşkil edən psixi proseslərin müəyyənləşdirilməsinə yönəlmiş tədqiqatların inkişafına səbəb olmuşdur.

1970-ci illərdə fəal şəkildə inkişaf etməyə başlayan *koqnitiv yanaşma* intellektin əsasını təşkil edən koqnitiv proseslərin və onların qabiliyyətlərlə əlaqəsinin öyrənilməsinə yönəlmişdir. Bu sahədə aparılan tədqiqatlar, bəzi koqnitiv prosesləri müəyyən edən tapşırıqlarla psixometrik intellekt testlərinin nəticələri arasında əlaqə olduğu göstərirdi [20]. Sonrakı tədqiqatlarda bu fikir daha da inkişaf etdirilərək, məlumatın işlənmə sürəti və psixi proseslərin effektivliyi (operativ yaddaş, icraçı diqqət və s.) istiqamətində aparılmışdır [7, 16, 19, 29, 30, 45, 48, 57, 58, 82]. Bu problemi daha dərindən öyrənən R.Sternberq informasiyanın emalı prosesini təşkil edən elementar komponentlərə və onların birləşmələrinə əsaslanan intellektin komponent konsepsiyasını təklif edir. Bu komponentlər standart intellekt testlərində sualları cavablandırarkən istifadə edilən əməliyyatlar vasitəsilə müəyyən edilmişdir [76, 78]. Bununla yanaşı bu nəzəriyyələr daha da inkişaf etdikcə, onların məhdudluğu ilə bağlı tənqidi fikirlər yaranmağa başlıyır. Əsas tənqidlər intellektin inkişafında və fəaliyyətində rol oynayan kontekst amillərinin qeyd olunmamasıdır. İlkin olaraq, qeyd olunan fikirlər real həyatda intellektual qabiliyyətlərin təzahürünə və istifadəsinə təsir edən sosial və mədəni kontekstlərin müxtəlifliyini vurğuluyur. Bu problemlə bağlı ilk mövqe bildirənlər sırasında D. Veksler qeyd edə bilərik. D.Vekslerə görə, qeyri-intellektual qabiliyyətlər (affektiv, şəxsi və sosial amillər) uğurlu fəaliyyətin proqnozlaşdırılmasında vacib rol oynuyur. O, bu amillərin ümumi intellektin müəyyən edilməsi üçün təkcə etibarlı deyil, həm də zəruri olduğunu, eyni zamanda davranışın qeyri-intellektual aspektləri nəzərə alınmadan ümumi intellektin ölçülməsinin mümkün olmadığını müdafiə edirdi [85]. Bu məhdudiyyətlərə cavab olaraq, intellektual davranışa təsir edən amillərin geniş spektrinin təsirini nəzərə alan və sosial-mədəni şəraitdə intellektual prosesləri öyrənən tədqiqatlar inkişaf etməyə başlıyır.

*Kontekstual yanaşmanın* müəllifləri hesab edirdilər ki, intellekt müəyyən mədəni çərcivələr daxilində öyrənilməlidir, yəni intellektual davranış insanın müxtəlif mühitlərə uyğunlaşmasını, bununla yanaşı yeni mühitlər yaratmaq bacarığını əhatə edir. Bu yanaşmanın əsas nümayəndələri isə R. Sternberq (üçlü intellekt nəzəriyyəsi) və H. Qardner (çoxsaylı intellekt nəzəriyyəsi) hesab edilir.

R.J. Sternberg üçlü intellekt nəzəriyyəsi. Daha əvvəl qeyd edildiyi kimi, intellektin komponent konsepsiyasını təklif edən R.J.Sternberq, daha sonra informasiyanın işlənməsi və ətraf mühit kontekstinin qarşılıqlı əlaqəsini tədqiq etməyə başlıyır. Nəticədə, intellektin insanın həyata uğurlu adaptasiyasında ifadə olunduğunu əsas gətirərək, intellektin üçlü nəzəriyyəsini irəli sürür: "intellekt məqsədli uyğunlaşmaya, seçimə və real dünya mühitinin formalaşmasına yönəlmiş əqli fəaliyyətdir" [77, s. 45].

Nəzəriyyənin əsas aspektləri:

1) İntellektin konteksti (praktiki intellekt[1]) - insanın yaşadığı ekoloji kontekstlərə uyğunlaşmasında ətraf mühitə adaptasiya, mühiti formalaşdırmaq və ya uyğun mühit seçməyin rolu vurğulanır.
2) Təcrübə və intellekt (yaradıcı intellekt) - insanın hər hansı bir məsələ həllində vacib olan təcrübələrdən (məsələnin insan üçün nisbətən yeni olduğu və ya verilmiş məsələnin icrasının avtomatlaşdırıldığı məqamlar) istifadə etməsidir.
3) Intellektin komponentləri (analitik intellekt) - bir insanın ətraf mühitə uyğunlaşmasında iştirak edən əsas komponentləri və psixi prosesləri müəyyən etməsidir.

Başqa sözlə desək, bu nəzəriyyəyə görə, intellektual davranış analitik, yaradıcı və praktik qabiliyyətlər arasında tarazlıqdan yaranır. Beləliklə, qeyd olunan qabiliyyətlərin birgə fəaliyyəti fərdlərə xüsusi sosial-mədəni kontekstlərdə uğur əldə etməyə imkan verir. Nəzəriyyə insanların xarici aləmə ağıllı şəkildə uyğunlaşmaq üçün daxili mexanizmlərdən necə istifadə etdiyini izah etməyə çalışır. *H. Qardner çoxşaxəlı intellekt nəzəriyyəsi.* R. Sternberg fərqli intellekt növlərinin qarşılıqlı əlaqəsini vurğulasa da, H. Qardner müxtəlif intellekt formalarının müstəqilliyini irəli sürür. H. Qardnerin (1991) fikrincə, intellekti ölçən hazırkı üsulları, akademik nailiyyətlərlə yanaşı, sonrakı həyatda uğuru proqnozlaşdırmaq üçün kifayət qədər dəqiq deyil. Eyni zamanda, o, problemi "testlərin texnologiyasında deyil, ənənəvi və köklü yanaşmalarda" görür və buna görə də intellektə dair nəzəri baxışları və perspektivləri genişləndirməyə çağırır [1, s. 68]. Bu səbəbdən H.Qardner (1991) çoxşaxəli intellekt nəzəriyyəsini irəli sürdü. Nəzəriyyə neyrobioloji və kross-mədəni müqayisələrlə bağlı tədqiqatlara əsaslanır. Çoxşaxəli intellekt nəzəriyyəsi intellekti tək bir konstruktor kimi yox, əksinə müxtəlif qabiliyyətlərin məcmusu kimi müəyyən edir. Bu isə öz növbəsində, çoxşaxəli intellekt nəzəriyyəsini digər intellekt nəzəriyyələrindən fərqləndirir. Birinçi fərqləndirən cəhət, intellekti ölçən İQ testlərini inkar etməsidir. Digər əsas cəhəti isə kontekstləşdirmədir, yəni intellektin təcrid olunmuş şəkildə deyil, daima sosial və mədəni mühit kontekstində müəyyən edilməsidir. Müəllif intellekti "problemləri həll etmək, bir və ya bir neçə mədəni kontekstdə effektiv məhsul yaratmaq bacarığı" kimi təyin edir [1, s. 162].

Bu bacarıqlar H.Qardnerin intellekt meyarlarına (bioloji, məntiq, inkişaf psixologiyası və ənənəvi psixoloji testlər və təcrübələr) əsasən müəyyən edilmişdir: 1) linqvistik; 2) riyazi-məntiqi; 3) məkan; 4) musiqi; 5) bədən-kinestetik; 6) şəxsiyyətlərarası və şəxsiyyətdaxili intellekt. Nevroloji tədqiqatlara əsaslanaraq müəllif hər bir intellekt üçün beynin xüsusi sahəsinin olduğunu və bu sahələrni bir-birindən müstəqil, lakin lazım gəldikdə birgə işlədiyini qeyd edir. Bununla yanaşı H.Qardner intellektin yeddi növ ilə məhdudlaşmadığını qeyd edir:"... birdəfəlik demək lazımdır ki, intellekt növlərinin yeganə mümkün və mübahisəsiz təsnifatı yoxdur və ola da bilməz. Tədqiqatçılar heç vaxt üç, yeddi və ya üç yüz növdən ibarət standart təsnifat yaratmayacaqlar. Yalnız bir səviyyəli təhlilə sadiq qalaraq bu məqsədə yaxınlaşa bilərik, lakin qarşımıza insan intellektinin hərtərəfli nəzəriyyəsini inkişaf etdirmək vəzifəsini qoysaq, o zaman axtarışımızın heç vaxt bitməyəcəyini düşünmək olar" [1, s. 161]. Beləliklə, bu fikir yeni intellekt (emosional intellekt, sosial intellekt) növlərinin yaranmağına səbəb oldu. Eyni zamanda, tədqiqatçılar arasında daha çox maraq yaradan intellekt növü kimi şəxsiyyətlərarası və şəxsiyyətdaxili intellketi qeyd etmək lazımdır. Çünki mövcud

[1] Praktiki intellekt anlayışı Eİ konsepsiyaların, xüsusən R.Bar-Onun emsoional-sosial intellekt modelinin nəzəri əsasını formalaşdıran ideyalardan biridir.

emosional intellekt nəzəriyyələrinin yaranmağında ilk növbədə şəxsiyyətlərarası və şəxsiyyətdaxili intellekt ideyasını görmək olar.

H. Qardnerə görə, şəxsiyyətdaxili intellekt öz hisslərini dərk etmək qabiliyyəti - insanın bütün hissləri və emosiyaları, həmçinin bu hisslər arasındakı fərqləri dərhal anlamaq, onlara ad vermək, simvolik bir şəkildə ifadə etmək, öz davranışlarını anlamaq və idarə etmək üçün bir vasitə kimi istifadə etmək bacarığıdır. Şəxsiyyətlərarası intellekt üçün isə əsas qabiliyyət başqaları arasındakı fərqləri görmək və anlamaq, xüsusən də onların əhval-ruhiyyəsi, temperamenti, motivləri və niyyətləri arasındakı fərqi görmək bacarığıdır. İnkişaf etmiş şəxsiyyətlərarası intellekt, bir çox insanın niyyət və istəklərini-hətta ən gizli olanları da tanımağa və bu biliklərə əsaslanaraq hərəkət etməyə imkan verir, məsələn, bir qrup ayrı-ayrı insanları istədikləri istiqamətə yönəltmək üçün təsir etmək bacarığı [1, s. 452]. Müəllif şəxsiyyətlərarası və şəxsiyyətdaxili intellketi təsvir edərkən, hər iki intellekt formalarının bir-birilə sıx bağlı olduğunu, eyni zamanda, bir insanın özünü tanıması, digər insanların müşahidə edərək öyrənmək qabiliyyətindən çox asılı olduğunu, başqalarını tanımaq isə daxili qiymətləndirmələrə əsaslandığını qeyd edir [1, s. 455]. Qeyd etmək lazımdır ki, bu kontekstdə emosional intellektin meydana gəlməsini  şərtləndirən şəxsiyyətdaxili intelletdir. Şəxsiyyətdaxili intellektin tərifinə nəzər yetirsək emosional intellektin əsas komponentlərini (emosional məlumatın koqnitiv işlənməsi) təşkil etdiyini görmək olar. Eyni zamanda sosial intellekt konsepsiyasının yenidən aktualaşdırılmasında H. Qardnerin şəxsiyyətlərarası intellektinin müəyyən edilməsi ilə başlıyır. Bütün bunlar həyat nailiyyətlərinə təsir edən amilləri daha geniş şəkildə izah edə bilən tədqiqatların inkişafına töhfə vermiş, eyni zamanda sosial intellekt anlayışının inkişafına təsir etmişdir.

*Sosial intellekt.* Sosial intellektlə bağlı araşdırmalar 20-ci əsrin əvvəllərində başlamış və bu günə qədər davam edir [8, 34, 36, 55, 80, 84]. 1920-ci ildə E.Torndayk sosial intellekt anlayışını təqdim edərək onu "insan münasibətlərində ağıllı davranmaq üçün kişiləri və qadınları, oğlanları və qızları başa düşmək və idarə etmək bacrığı" kimi müəyyən etmişdir [80, s. 228]. E.Torndayk tərəfindən təqdim olunan tərifdən sonra, bir çox alternativ təriflər və ölçülməsi ilə bağlı tədqiqatlar təqdim edilmişdir [13, 38, 56, 59, 69], lakin uzun müdddət aparılan tədqiqatlar nəticələri sosial intellektin tərifi və ölçülməsi ilə bağlı bir sıra cətinliklərin olduğunu göstərdi: 1) sosial davranışı müəyyən edən müxtəlif amillərin movcudluğu; 2) digər intellekt növləri ilə yüksək korrelyasiya olması (mücərrəd intellekt, xüsusən verbal intellekt) [15, 70]. Nəticədə, sosial intellektlə bağlı tədqiqatlar şəxsiyyətlərarası davranışların öyrənilməsi ilə əvəz olundu. Bununla belə, sosial intellektə marağın yenidən artması N.Cantor və J.F.Kihlstromun sosial intellektə yeni baxışı ilə bağlıdır, beləki sosial davranışdakı fərdi fərqləri, şəxsiyyətin ictimai təzahürlərini, fərdlərin sosial qarşılıqlı əlaqələrində istifadə etdikləri biliklərdəki fərdi fərqlərin məhsulu kimi nəzərdən keçirilər [11, 47]. Digər tərəfdən koqnitiv nevrologiyaya və neyrobioloji tədqiqatlar sosial intellektin digər intellekt formalarından fərqləndiyini göstərir. Sosial nevrologiya sosial davranışın əsasında dayanan sinir, hormonal, hüceyrə və genetik mexanizmləri müəyyən etməyə və bununla da sosial və bioloji səviyyələr arasında qarşılıqlı əlaqələri və təsirləri öyrənir. Bu isə öz növbəsində, sosial intellektin müstəqil bir quruluş olduğunu təsdiq edir [9, 46]. Koqnitiv nevrologiyaya və neyrobioloji tədqiqatların əsasında və emosional intellekt modelini təkminləşdirdikdən sonra D. Goleman sosial intellekti yenidən diqqət mərkəzinə gətirir. Müasir sosial intellekt modeli özündə tək soial bilikləri yox, həmçinin sosial bacarıqları əhatə edir [31].

3) emosiyaların və koqnitiv proselərin qarşılıqlı  təsiri ilə bağlı tədqiqatların inkişafı

Beləliklə, həm emosiya həm intellekt sahəsində formalaşan yeni baxışlar psixologiya elmində "***emosiyalar və intellektin qarşılıqlı təsiri" ilə bağlı*** yeni tədqiqat mövzusu yaratmağa başladı. Bu tədqiqatlar uzun müddətdir davam edən müzakirə mövzusu olmasına baxmayaraq, müasir kontekstdə öz təsdiqini tapmağa başlıyır. Daha əvvəl qeyd edildiyi kimi, emosiya və koqnitiv proseslər arasındakı qarşılıqlı əlaqə ilə bağlı tədqiqatlar emosiyaların *koqnitiv nəzəriyyələrinə y*önəlmiş tənqidlərdən yaranmışdır. Eyni zamanda, intellektin müasir konsepsiyaları (*qeyri-intellektual komponentlər)* intellektin daha geniş öyrənilməsinə və fərqli qiymətləndirmə üsulların axtarışına təkan verdi.

Tədqiqatçıların nəticələrinə görə, bu əlaqəni müəyyən edəcək müxtəlif yanaşmalar mövcuddur: a) koqnitiv proseslərin və emosiyanın müstəqil sistemlər tərəfindən idarə olunması (neyrobioloji tədqiqatlar), b) koqnitiv proseslərin emosiya üçün zəruri olması (emosiyaların koqnitiv qiymətləndirilməsi), c) stimullara qarşı affektiv reaksiyaların koqnitiv təhlildən əvvəl yaranması (koqnitiv nəzəriyyəni inkar edən tədqiqatlar) və d) hər iki prosesin bir-birindən fərqlənməməsi (müstəqil sistemlər tərəfindən idarə olunmasını inkar edən tədqiqatlar) [18].

Bu yanaşmalar koqnitiv proseslərin və emosiyaların qarşılıqlı əlaqəsi ilə bağlı bir sıra mühüm suallar doğurdu ki, bu da sonradan dərin tədqiqat obyektinə çevrildi. Xüsusən nevrologiya və psixologiya sahəsində aparılan tədqiqatları vurğulamaq vacibdir, çünki emosional intellekt konsepsiyasının formalaşmasına təsir edən bu sahədə olan yeniliklərdi. Neyrobioloji tədqiqatların nəticəsində, ümumi qəbul edilən fikir ondan ibarətdir ki, hisslər siqnalları talamusa, talamusdan isə neokorteksin həssas emal sahələrinə ötürür, burada siqnallar təhlil edilir, məna və uyğun reaksiya üçün qiymətləndirilir. Neokorteksdən siqnallar emosional mərkəzləri aktivləşdirmək üçün limbik beyinə ötürülür. LeDoux kəşfi ondan ibarətdir ki, talamusdan bilavasitə badamvari cisimə (amigdala) aparan daha kiçik bir neyron dəstəsini müəyyən edir, bu isə öz növbəsində badamvari cismin hisslərdən birbaşa siqnallar almasına və neokorteks tərəfindən tam qeydə alınmadan reaksiyaya başlamasına imkan verir. Beləliklə, badamvari cisim hiss orqanları vasitəsilə aktivləşdikdən sonra, ona proyeksiya edən korteks sahələrinə (diqqət və qavrayış) təsir etməyə başlıyır [5, 50, 51, 52]. Digər tərəfdən bu sahədə ki müasir tədqiqatlar koqnitiv proseslərin müstəqil olaraq emosiyalara və əhval-ruhiyyəyə təsir etdiyini göstərir. Bu proses isə badamvari cisim ilə sol prefrontal korteksin sahələri arasındakı əlaqədən asılıdır [17]. Empirik tədqiqatlar təkcə neyrobioloji sahəni deyil, həm idrak prosesləri, sosial idrak və klinik tədqiqat sahələrini əhatə etdiyini görmək olar [64]. Bu tədqiqatlardan ən vacibi isə klinik tədqiqatlar əsasında formalaşmış və emosional intellekt nəzəriyyəsinin gələcək inkişafına mühüm təsir göstərmiş aleksitimiya konsepsiyasıdır. Aleksitimiya öz emosiyalarını müəyyən etmək və təsvir etməkdə çətinliklərlə, təsəvvür etmək qabiliyyətinin məhdudluğu və xaricə yönəlmiş düşüncə tərzi ilə xarakterizə olunan psixoemosional vəziyyətdir [79].

Emosiya və intellekt ilə bağlı nəzəriyyələrin inkişafını təhlil etdikdə görmək olarki, bu anlayışlar tarix boyu əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Bu dəyişikliklər hər bir dövrə xas olan intellektual cərəyanların və mədəni kontekstlərin inkişafı ilə şərtlənirdi ki, bu isə emosiyaların və intellektin təbiətinin qavranılmasına və şərhinə təsir göstərirdi. Zaman keçdikcə müxtəlif fəlsəfi, elmi və mədəni cərəyanlar bu hadisələrə dair yeni baxışlar formalaşdırdılar ki, bu da son nəticədə onların qarşılıqlı əlaqələrinin daha dərin və geniş öyrənilməsinə səbəb oldu.

Beləliklə, emosiya bağlı klassik və müasir yanaşmalar emosional intellektin geniş mənada müəyyən edilməsində, bununla belə, intellekt bağlı tədqiqatları emosional intellektin daha dar mənada, yəni konstruksiya kimi yaranmasında və formalaşmasında mühüm rol oynamışdır.

*"Emosional intellekt"* termini ilk dəfə[2] U. Paynenin "Emosiyaların tədqiqi: emosional intellektin inkişafı" adlı çap olunmamış dissertasiyasında öyrənilmişdir. Müəllif işində emosiya ilə bağlı vacib məsələləri yenidən qaldırır, müəllif müasir dünyada emosional cəhalətin emosiyaların kütləvi şəkildə basdırılması ilə əlaqələndirir. Bunun səbəbini isə müəllif emosiyaların təbiəti və yerinə yetirdiyi mühüm funksiyalar haqqında düzgün təsəvvürün olmamasında görürdü. Probleme yanaşması isə emosiyaların və emosional intellektin təbiətini intellekt konsepsiyalarına əsasən izah etməsidir: "faktlar, mənalar, həqiqətlər, münasibətlər və s. emosiya sahəsindədə mövcuddurlar. Beləliklə, intellekt sahəsindəki sözlər və rəqəmlər xüsusi faktlar hesab edilirsə, hisslərdə emosiya sahəsində xüsusi olan faktlardır. Mənalar – subyektiv mənalar, həqiqətlər - emosional həqiqətlərdi, müna-

[2] Emosional intellekt termini ilk dəfə ədəbiyyatda Van Gent (1961) və psixiatriyada Leyner (1966) tərəfindən istifadə edilmişdir. Leiner 1966-ci ildə "Emosional İntellekt və Emansipasiya" adlı məqaləsində erkən yaşda analarından ayrılma nəticəsində sosial rollarını rədd edən qadınları müəyyən edərək, onların "El" səviyyəsinin aşağı olmasından əziyyət çəkdiyini irəli sürmüşdür.

sibətlər- şəxsiyyətlərarası münasibətlərdir. Həll etdiyimiz problemlər isə - emosional problemlərdir [62, s. 23]. Elmi ədəbiyyatda "emosional intellekt" terminini ilk dəfə P. Salovey və C. Mayer tərəfindən istifadə edilmişdir. Təklif olunan ilkin konsepsiya Eİ intellekt kimi müəyyən edir və necə ölçülə biləcəyini empirik şəkildə irəli sürür [54, 66]. Konsepsiyanın geniş şəkildə tanınmasına səbəb olan amerikan psixoloqu, jurnalisti D.Golemanın 1995-ci ildə dərc etdiyi "Emosional intellekt" adlı kitabı olmuşdur [32]. Kitab tez bir zamanda geniş ictimaiyyətin və tədqiqatçıların diqqətini cəlb edir. Buna səbəb isə emosional intellektin sosial problemlərə təsiri və bəzi sahələrdə uğur əldə etmək üçün İQ daha güclü amil olması ilə bağlı fikirləri idi.

Emosional intellektin konseptuallaşdırılmasında vacib rollardan biridə amerikan psixoloqu R. Bar-Ona aiddir. R. Bar-On "Psixoloji rifah" adlı doktorluq dissertasiyasında effektiv emosional və sosial fəaliyyətin psixoloji rifah hissinə səbəb olduğunu qeyd edərək, emosional və sosial bacarıqların ölçülməsi üçün EQ (Emotional Quotient) metodikasını yaradır, bu fikirlərin əsasında isə 1997-ci ildə o, emosional-sosial intellekt konsepsiyasının irəli sürür. Bu tədqiqatlar emosional intellektə yaxın olan anlayışları və ideyaları yaradır. Xüsusilə, R.K.Kuper emosional bilik və hazırlıq kimi şəxsi və sosial aspektlərlə bağlı olan, emosiyalardan səmərəli istifadə etmək bacarığı kimi mühüm keyfiyyətləri müəyyən edir [14]. Bundan əlavə, V. Duleviç və M. Hiqqsin yanaşmaları emosiyaların, motivasiyanın və etik davranışın idarə olunmasına diqqət yetirir, onların liderlikdə və başqaları ilə qarşılıqlı əlaqədə əhəmiyyətini vurğulayır [35]. Öz növbəsində, K. Saarni emosional kompetensiya modelində, fərdin sosial məqsədlərini dəstəkləyən yetkin emosional reaksiyaları təşviq edən bacarıqların inkişafına diqqət yetirir [65].

Beləliklə, emosional intellektə yaranan maraq onun nəzəri təriflərinin və modellərinin sayının artırır, bu isə onun strukturunun və konseptuallaşdırılmasının mürəkkəbliyinə səbəb oldu. Eyni zamanda, intellekt testləri və özünü hesabat sorğuları kimi ölçmə üsulların istifadəsi bir sıra konseptual problemləri üzə çıxarır. Bu çətinliklərə cavab olaraq, K.V. Petrides və A.Furnham emosional intellektin qiymətləndirilməsində iki yanaşmanı fərqləndirməyi təklif etdilər: emosional intellek qabiliyyət kimi və xarakter əlaməti kimi [63]. K.V. Petrides və A. Furnham mövcud modellərin kontent analizi nəticəsində şəxsiyyətin əlaqəli aspektlərini vahid bir strukturda birləşdirdirərək emosional intellektin əlamət modelini irəli sürülər.

## YEKUN NƏTİCƏ

Tədqiqatlar göstərir ki, emosiyalar və idrak prosesləri birbirilə bağlıdır və hadisələrə qarşılıqlı edir. Ç.Darvin və U.Ceymsin klassik ideyalarından başlayaraq müasir koqnitiv və neyrobioloji yanaşmalarla bitən emosiyalar nəzəriyyələrinin inkişafı emosional reaksiyaların təbiəti və onların idrak fəaliyyəti ilə əlaqəsi haqqında baxışların təkamülünü göstərir. Müasir tədqiqatlar emosiyaların formalaşmasında koqnitiv qiymətləndirmənin əhəmiyyətini, eləcə də emosional vəziyyətlərin intellektual fəaliyyətə təsirini vurğulayır. Emosional və sosial intellekt sahəsində aparılan tədqiqatlar göstərir ki, emosiyaları anlamaq və idarə etmək bacarığı insanın müxtəlif sosial və mədəni kontekstlərə uğurlu adaptasiyası üçün mühüm amildir.

İlk dəfə P.Salovey və C.Mayer tərəfindən irəli sürülən emosional intellekt konsepsiyası D.Goleman və R.Bar-Onun əsərləri ilə daha da inkişaf etdirilmiş və onun praktik tətbiqini liderlik, sosial adaptasiya və şəxsi inkişaf sahələrini əhatə etməklə genişləndirmişdir. Tədqiqatlar göstərdi ki, emosional intellekt davranış, qərar qəbul etmə və sosial qarşılıqlı əlaqəni tənzimləməkdə mühüm rol oynayır. Nəticədə qeyd etmək lazımdır ki, emosiyaların və idrak proseslərinin inteqrasiyası fərdin həyatın müxtəlif sahələrində uğurlu fəaliyyətini təmin edən mürəkkəb adaptiv sistemdir.

## ƏDƏBİYYAT

1. Гарднер, Г. Структура разума: теория множественного интеллекта: пер. с англ. / Говорд Гарднер. М.: ООО «И.Д. Вильяме», – 2007. – 512 с.
2. Дарвин, Ч.О выражении эмоций у человека и животных. Санкт-Петербург: Питер, – 2001. – 384 с.
3. Джемс, У. Психология:пер. с англ. / У. Джемс; под ред. Л. А. Петровской. – Москва : Педагогика, – 1991. – 367 с.
4. Симонов, П.В. Что такое эмоция? / П.В. Симонов. – Москва: Наука, – 1966, – с. 94.
5. Adolphs, R., & Damasio, A. R. Neurobiology of emotion at a systems level // In J. C. Borod (Ed.), The neuropsychology of emotion. Oxford University Press, – 2000, – p. 194-213.
6. Arnold, M.B. Emotion and Personality. Psychological Aspects Vol. 1. New York: Columbia University Press, – 1960.
7. Baddeley, A.D. Working memory / A.D.Baddeley. – Oxford: Claredon Press, – 1986.
8. Barnes, M. L., Sternberg, R.J. Social intelligence and decoding of nonverbal cues // Intelligence, – 1989, 13 (3), – p. 263-287.
9. Cacioppo, J.T. Multilevel integrative analyses of human behavior: Social neuroscience and the complementing nature of social and biological approaches / Berntson, G.G., Sheridan, J.F., McClintock, M.K // Psychological Bulletin, – 2000, 126 (6), – p. 829-843.
10. Cannon, W.B. The James-Lange theory of emotions: A critical examination and an alternative theory // The American Journal of Psychology , Autumn - Winter, 1987, Vol. 100, No. 3/4, Special Centennial Issue (Autumn - Winter, 1987), – p. 567-586.
11. Cantor, N., Kihlstrom, J.F. Personality and social intelligence. Englewood Cliffs, New Jersey: – Prentice Hall, – 1987.
12. Carroll, J.B. Human cognitive abilities: A survey of factor-analytic studies. Cambridge, England: Cambridge University Press, – 1993.
13. Chapin, F.S. Preliminary Standardization of a Social Insight Scale // American Sociological Review, – 1942, 7 (2), – p. 214-225.
14. Cooper, R.K., & Sawaf, A. Executive EQ: Emotional Intelligence in Business. – London: Orion Business Books, – 1997.
15. Cronbach, L.J. Essentials of psychological testing (4th ed.). New York, NY: Harper & Row, – 1984.
16. Daneman, M., Carpenter, P. A. Individual differences in working memory and reading // Journal of Verbal Learning and Verbal Behavior, – 1980, 19, – p. 450-466.
17. Davidson R.J, Jackson D.C, Kalin N.H. Emotion, plasticity, context, and regulation: perspectives from affective neuroscience // Psychol Bull, – 2000, 126 (6), – p. 890-909.
18. Dalgleish, T., Power, M. J. Handbook of cognition and emotion. John Wiley & Sons Ltd., – 1999.
19) Deary, I.J., Stough, C. Intelligence and inspection time // American Psychologist, – 1996, 5 (6), – p. 599-608.
20. Hunt, E., Frost, N., Lunneborg, C. Individual Differences in Cognition: A New Approach to Intelligence // Psychology of Learning and Motivation, – 1973, 7, – p. 87-122.
21. Ekman, P., Friesen, W.V. Nonverbal Behavior in Psychotherapy Research. // In Shlien, J. (Ed.), Research in Psychotherapy, Vol. 3 Washington, D.C.: American Psychological Association. 1968, – p. 179-216.
22. Ekman, P., Friesen, W.V. Constants Across Cultures in the Face and Emotion // Journal of Personality and Social Psychology, – 1971, 17 (2), – p. 124-129.
23. Ekman, P., Scherer, K.R. Questions about emotion: An Introduction // In Scherer, K. Ekman, P. (Eds.), Approaches to Emotion, Hillsdale, NJ: Lawrence Erlbaum, – 1984. – p. 1-8.

24. Ekman, P. Universal Facial Expressions of Emotions // California Mental Health Research Digest, – 1970, 8 (4), – p. 151-158.
25. Ekman, P. Universals and Cultural Differences in Facial Expressions of Emotions // In Cole, J. (Ed.), Nebraska Symposium on Motivation Lincoln, NB: University of Nebraska Press, – 1972, – p. 207-282.
26. Ekman, P. Are There Basic Emotions? // Psychological Review, – 1992, 99 (3), – p. 550-553.
27. Ekman, P., Friesen, W.V., Tomkins, S.S. Facial Affect Scoring Technique: A First Validity Study // Semiotica, – 1971, 3, – p. 37-58.
28. Ekman, P., Sorenson, E.R., Friesen, W.V. Pan-Cultural Elements in Facial Display of Emotions // Science, – 1969, 164, – p. 86-88.
29. Engle, R. W., Kane, M. J. Executive attention, working memory capacity, and a two-factor theory of cognitive control // In Psychology of Learning and Motivation, – 2004, 44, – p. 145-199.
30. Frijda, N.H. Emotion, cognitive structure, and action tendency // Cognition and Emotion, – 1987, 1 (2), – p. 115-143.
31. Goleman, D. Social Intelligence: The New Science of Human Relationships / D.Goleman. – Bantam, – 2006.
32. Goleman, D. Emotional intelligence. Bantam Books, Inc, – 1995.
33. Guilford, J.P. The structure of intellect // Psychological Bulletin, – 1956, 53 (4), – p. 267-293.
34. Guilford, J.P. The nature of human intelligence. New York, NY: McGraw-Hill Book Company, – 1967.
35. Higgs, M.J., Dulewicz, S.V. Emotional intelligence: managerial fad or valid construct? (Henley Working Paper Series, HWP 9813) Henley, UK. Henley Business School, University of Reading, – 1998.
36. Hoepfner, R., O'Sullivan, M. Social intelligence and IQ // Educational and Psychological Measurement, – 1968, 28, – p. 339-344.
37. Horn, J.L., Cattell, R.B. Refinement and test of the theory of fluid and crystallized general intelligences // Journal of Educational Psychology, – 1966, 57 (5), – p. 253-270.
38. Hunt, T. The measurement of social intelligence // Journal of Applied Psychology, – 1928, 12 (3), – p. 317-334.
39. Izard, C.E. Basic emotions, relations among emotions, and emotion-cognition relations // Psychol Rev, – 1992, 99 (3), – p. 561-565.
40. Izard, C.E. Cross-cultural research findings on development in recognition of facial behavior // Proceedings of the 76th Annual Convention of the American Psychological Association, – 1968.
41. Izard, C.E. The emotions and emotion constructs in personality and culture research // In R. B. Cattell (Ed.), Handbook of modern personality theory. Chicago: Aldine Press. KLINEBERG, O. Emotional expression in Chinese, – 1969.
42. Izard, C.E. The maximally discriminative facial movement coding system (MAX) // Unpublished manuscript. Available from Instructional Resource Center, University of Delaware, Newark, Delaware, – 1979.
43. Izard, C.E. Face of emotion / C.E.Izard. – New York: Appleton-Century-Crofts, – 1971.
44. Izard, C.E. Human Emotions / C.E.Izard. – New York, London: Plenum, – 1977.
45. Jensen, A.R. Reaction time and psycyometric g // In H. J. Eysenck (Ed.), A model for intelligence. Berlin: Springer, – 1982. – p. 93-132.
46. Kihlstrom, J.F. Social neuroscience: The footprints of Phineas Gage // Social Cognition, – 2010, 28 (6), – p. 757-783.
47. Kihlstrom, J.F., Cantor, N. Social intelligence // In R. J. Sternberg (Ed.), Handbook of intelligence New York: – Cambridge University Press, – 2000. – p. 359-379.
48. Kyllonen Patrick, C. Christal Raymond E. Reasoning ability is (little more than) working-memory capacity // Intelligence, – 1990, 14, – p. 389-433.

49. Lazarus, R. S. On the primacy of cognition // American Psychologist, – 1984, 39, – p. 124-129.
50. LeDoux, J.E. The emotional brain: The mysterious underpinnings of emotional life. Simon & Schuster, – 1996.
51. LeDoux, J.E. Emotional circuits in the brain // Annual Reviews of Neuroscience, – 2000, 23, – p. 155-184.
52. Ledoux, Joseph. The Emotional Brain, Fear, and the Amygdala. Cellular and molecular neurobiology, – 2003.
53. Mandler, G. The generation of emotion: A psychological theory. In R. Plutchik and H. Kellerman (Eds.), Theories of emotion. New York: Academic Press. Italian translation in G. Chiari and M.L. Nuzzo (Eds.) Crescita e cambiamento della conoscenza individuale. Milan: Franco Angeli, – 1980.
54. Mayer, J.D., Dipaolo, M., Salovey, P. Perceiving Affective Content in Ambiguous Visual Stimuli: A Component of Emotional Intelligence // Journal of Personality Assessment, – 1990, 54 (3&4), – p. 772-781.
55. Moss, F.A. Social intelligence test / Hunt, T., Omwake, K. T., Ronning, M. M // Washington, DC:George Washington University, – 1927.
56. Moss, F.A., Hunt, T. Are you socially intelligent? // Scientific American, – 1927, 137, – p. 108-110.
57. Nettelbeck, T., Lally, M. Inspection time and measured intelligence // British Journal of Psychology, – 1976, 67, – p. 17-22.
58. Neubauer, A.C., Knorr, E. Three paper-and-pencil tests for speed of information processing: Psychometric properties and correlations with intelligence // Intelligence, – 1998, 26, – p. 123-151.
59. O'Sullivan, M., Guilford, J.P., deMill, R. The Measurement of Social Intelligence (Psychological Laboratory Report No. 34). Los Angeles, CA: University of Southern California., – 1965.
60. Oatley, K., Johnson-Laird, P.N. Towards A Cognitive Theory of Emotions // Cognition and Emotion, – 1987, 1 (1), – p. 29-50.
61. Ortony, A., Clore, G.L., Collins, A. The cognitive structure of emotions. Cambridge University Press, – 1988.
62. Payne, W.L. A Study of Emotion: Developing Emotional Intelligence; Self Integration; Relating to Fear, Pain and Desire. Dissertation Abstracts International, – 1986.
63. Petrides, K.V., Furnham, A. Trait Emotional Intelligence: Psychometric Investigation with Reference to Established Trait Taxonomies // European Journal of Personality, – 2001, 15, – p. 425-448.
64. Robinson, M.D., Watkins, E.R., Harmon-Jones, E. Cognition and emotion: An introduction // In M. D. Robinson, E. Watkins, & E. Harmon-Jones (Eds.), Handbook of cognition and emotion. The Guilford Press, – 2013. – p. 3-16.
65. Saarni, C. The development of emotional competence / C.Saarni. – Guilford Press, – 1999.
66. Salovey, P., Mayer, J.D. Emotional Intelligence // Imagination, Cognition, and Personality, – 1990, 9, – p. 185-211.
67. Schachter, S., Singer, J. Cognitive, social, and physiological determinants of emotional state // Psychological Review, – 1962, 69 (5), – p. 379-399.
68. Scherer, K.R. Emotion as a multicomponent process: A model and some cross-cultural data // Review of Personality & Social Psychology, – 1984, 5, – p. 37-63.
69. Sechrest, L, Jackson, D.N. Social intelligence and accuracy of interpersonal predictions // J Pers, – 1961. – p. 167-182.
70. Shanley, L.A., Walker, R.E., Foley, J.M. Social Intelligence: A Concept in Search of Data // Psychological Reports, – 1971, 29, – p. 1123-1132.
71. Silvan, T. Affect Imagery Consciousness. The Negative Affects. New York: Springer. "Affects: Primary Motives of Man." Humanitas 3, – 1963, 3, – p. 321-345.

72. Silvan, T. Affect Imagery Consciousness. Volume 1. The Positive Affects. New York: Springer. "Commentary: The Ideology of Research Strategies." In Measurement in Personality and Cognition, edited by Samuel Messick and John Ross, – 1962. – p. 285-294.
73. Smith, C.A., & Ellsworth, P.C. Patterns of cognitive appraisal in emotion // Journal of Personality and Social Psychology, – 1985, 48 (4), – p. 813-838.
74. Solomon, R. C. The philosophy of emotions / In M. Lewis, J. M. Haviland-Jones, & L. F. Barrett (Eds.), Handbook of emotions (3rd ed.) The Guilford Press, – 2008. – p. 3-16.
75. Spearman, C. The Abilities of Man. In J. J. Jenkins & D. G. Paterson (Eds.), Studies in individual differences: The search for intelligence. Appleton-Century-Crofts, – 1961, – p. 241-266.
76. Sternberg, R.J. Component processes in analogical reasoning // Psychological Review, – 1977, 84, – p. 353-378.
77. Sternberg, R.J. Beyond IQ: A triarchic theory of human intelligence / R.J.Sternberg. – Cambridge University Press, – 1985.
78. Sternberg, R.J. Intelligence, information processing, and analogical reasoning: A componential analysis of human abilities. Hillsdale, New Jersey: Lawrence Erlbaum Associates, – 1977.
79. Taylor, G., Parker, J., Bagby, R. Emotional Intelligence and the Emotional Brain: Points of Convergence and Implications for Psychoanalysis // The Journal of the American Academy of Psychoanalysis, – 1999.
80. Thorndike, E. Intelligence and Its Uses // Harper's Magazine, – 1920, 140, – p. 227-235.
81. Thurstone, L.L. Primary mental abilities / L.L.Thurstone. – University of Chicago Press: Chicago, – 1938.
82. Vernon, P.A. Speed of information-processing and intelligence / P.A.Vernon. Ablex Publishing, – 1987.
83. Vernon, P.E. The structure of human abilities / P.E.Vernon. – London: Methuen, – 1950.
84. Vernon, P.E. Some characteristics of the good judge of personality // Journal of Social Psychology, – 1933, 4, – p. 42-57.
85. Wechsler, D. Non-intellective factors in general intelligence // The Journal of Abnormal and Social Psychology, – 1943, 38, – p. 101-103.
86. Zajonc, R.B. Feeling and thinking: Preferences need no inferences // American Psychologist, – 1980, 35 (2), – p. 151-175.

## HISTORY OF THE DEVELOPMENT OF EMOTIONAL INTELLIGENCE: FROM 19TH CENTURY THEORIES TO THE MODERN NATURE OF THE NOTION

**N.Y. Ismayilova**

The article examines the historical evolution of emotional intelligence, starting from the philosophical and scientific approaches of the 19th century and up to modern cognitive and neurobiological models. The author analyzes key theoretical works, including works by Ch. Darwin, U. James, and U. Cannon, which became the basis for forming ideas about the relationship between emotions and reason. Special attention is paid to modern research in the field of cognitive psychology and neuroscience, which allows a deeper understanding of the mechanisms of emotional intelligence. The main theories of intelligence, such as psychometric, cognitive, and contextual approaches, which have made a significant contribution to the development of this concept, are considered. The functional interaction of emotions and cognitive processes as adaptive mechanisms contributing to social adaptation is also investigated. Emotional intelligence is considered the most important factor that determines the success of interpersonal relationships and effective adaptation in society.

**Keywords:** *emotions, intelligence, history of development, social intelligence, emotional intelligence*

# ИСТОРИЯ РАЗВИТИЯ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА: ОТ ТЕОРИЙ XIX ВЕКА ДО СОВРЕМЕННОЙ ПРИРОДЫ ПОНЯТИЯ

**Н.Ю. Исмаилова**

В статье рассматривается историческая эволюция концепции эмоционального интеллекта, начиная с философских и научных подходов XIX века и до современных когнитивных и нейробиологических моделей. Автор анализирует ключевые теоретические работы, в том числе труды Ч. Дарвина, У. Джеймса и У. Кэннона, которые стали основой для формирования представлений о взаимосвязи эмоций и разума. Особое внимание уделено современным исследованиям в области когнитивной психологии и нейронауки, которые позволяют глубже понять механизмы эмоционального интеллекта. Рассматриваются основные теории интеллекта, такие как психометрический, когнитивный и контекстуальный подходы, которые внесли значительный вклад в развитие этой концепции. Также исследуется функциональное взаимодействие эмоций и когнитивных процессов как адаптивные механизмы, способствующие социальной адаптации. Эмоциональный интеллект рассматривается как важнейший фактор, определяющий успешность межличностных отношений и эффективную адаптацию в обществе.

**Ключевые слова:** *эмоции, интеллект, история развития, социальный интеллект, эмоциональный интеллект*